**Azərbaycan Respublikası Mərkəzi Bankının (AMB) İdarə Heyəti uçot dərəcəsinin 9 faizdən 8,75 faizə endirilməsi haqda qərar qəbul edib. Faiz dəhlizinin yuxarı həddi 10,75 faiz, aşağı həddi isə 6,75 faiz (uçot dərəcəsinə 2 faizlik simmetrik diapazonda) səviyyəsində müəyyən edilib. Qərar aprelin 26-dan qüvvəyə minir.**

**AZƏRTAC xəbər verir ki, Mərkəzi Bankın sədri Elman Rüstəmov aprelin 26-da keçirdiyi mətbuat konfransında İdarə Heyətinin qərarını şərh edib.**



Bildirib ki, bu qərar inflyasiya səviyyəsinin hədəf (42 faiz) daxilində olması, inflyasiya gözləntilərinin sabitliyi, əlverişli xarici mühit nəzərə alınmaqla qəbul edilib. İnflyasiyanın hədəf diapazonunun aşağısına yaxın olması monetar siyasətin normallaşdırılması prosesinin davam etdirilməsinə imkan verir.

### İnflyasiya prosesləri

E.Rüstəmov qeyd edib ki, 2019-cu ilin martında 12 aylıq inflyasiya 2,5 faiz təşkil edib və bu, hədəf çərçivəsinin aşağı həddinə yaxındır. İllik inflyasiya başlıca olaraq pullu xidmətlərin qiymət-tarif dinamikasından təsirlənir (3,7 faiz), uyğun olaraq illik inflyasiyanın artımının təxminən yarısı bu amilin payına düşür. Ərzaq (2,3 faiz) və qeyri-ərzaq qiymətlərinin (1,3 faiz) dinamikası ümumi inflyasiya dinamikasından aşağıdır. Məcmu tələbin genişlənməsi və bir sıra qeyri-monetar amillərin qiymətlərə artırıcı təsirinə baxmayaraq, ikitərəfli və nominal effektiv məzənnənin dinamikası, həmçinin monetar şərait inflyasiyanın hədəf çərçivəsində qalmasını şərtləndirib.

### İnflyasiya gözləntiləri

Aşağı faktiki inflyasiya fonunda inflyasiya gözləntilərinin stabil olaraq qaldığını deyən AMB sədri vurğulayıb ki, Mərkəzi Bankın həyata keçirdiyi real sektorun monitorinqinin nəticələrinə əsasən, son ayda qiymət gözləntiləri qeyri-neft emal sənayesində və tikintidə azalıb. Ev təsərrüfatları arasında mart ayında aparılan sorğunun nəticələrinə görə, inflyasiya tempinin yüksələcəyini gözləyən respondentlərin payı cəmi 3,2 faizdir. Son proqnozlar 2019-cu ilin qalan dövründə də inflyasiyanın hədəf daxilində (42 faiz) qalacağını göstərir. Beynəlxalq maliyyə-kredit təşkilatları da özlərinin son hesabatlarında 2019-cu ildə Azərbaycanda inflyasiyanın aşağı birrəqəmli səviyyədə qalacağını proqnozlaşdırırlar.

### Xarici şərait

E.Rüstəmov deyib ki, xarici sektorda müsbət dinamika davam edir. Cari ilin ilk rübündə ixracın 34 faiz, o cümlədən qeyri-neft ixracının 17 faiz artması nəticəsində xarici ticarət balansında 1,3 milyard ABŞ dolları məbləğində müsbət saldo yaranıb. Monetar qızıl idxalı nəzərə alınmadan xalis qeyri-neft idxalı isə 9,7 faiz artıb. Dünya əmtəə bazarlarında qiymət konyunkturu Azərbaycan üçün əlverişlidir. Neftin qiyməti ilin əvvəlindən 34 faiz yüksələrək 70 dolları üstələyib. Neftin orta qiyməti 65 dollardan yüksək olub.

Qeyd edib ki, birinci rübdə strateji ehtiyatlar 1,9 milyard dollar artaraq 46,7 milyard dollara çatıb. BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatının məlumatına görə, dünya ərzaq qiymətləri indeksi yanvar-mart aylarında 3,4 faiz yüksəlsə də, ötən ilin eyni dövrünə nəzərən 3,6 faiz aşağıdır. Martda ötən ayla müqayisədə ət və süd məhsulları bahalaşıb, taxıl, bitki yağı və şəkər ucuzlaşıb.

“İlin sonuna tədiyə balansının cari hesabında əhəmiyyətli profisitin olacağı proqnozlaşdırılır. Bununla bağlı Mərkəzi Bankın və beynəlxalq təşkilatların proqnozları bir-birinə yaxındır. Profisitli tədiyə balansı şəraitində 2019-cu ilin birinci rübündə ölkənin daxili valyuta balansı tarazlığını qoruyub, AMB-də keçirilən valyuta hərraclarında tələb təklifə demək olar ki, bərabər olub”, - deyə bankın sədri diqqətə çatdırıb.

### İqtisadi aktivlik

E.Rüstəmov deyib: “İlin əvvəlindən iqtisadi artım tempində başlayan yüksəliş davam edir. 2019-cu ilin ilk rübündə ötən ilin müvafiq dövrünə nəzərən real iqtisadi artım 3 faiz təşkil edib. İqtisadi artım qeyri-neft sektorunda 1,7 faiz olub ki, bu da əsasən ticari sektordan qaynaqlanıb. Qeyri-neft sənayesində 16,1 faiz, kənd təsərrüfatında 3,6 faiz artım müşahidə olunub. Mərkəzi Bank tərəfindən həyata keçirilən real sektorun monitorinqi əsasında hesablanan biznes inam indeksi ötən 3 ayda ticarət və tikinti sektorunda artıb. Sosial islahat paketi çərçivəsində iqtisadiyyata veriləcək fiskal stimulların ilin qalan dövründə daxili tələbi genişləndirməklə iqtisadi aktivliyi yüksəldəcəyi gözlənilir. İstehlak tələbinin genişlənməsinin izafi inflyasiya təzyiqi yaratmamasının başlıca şərti daxili istehsalın artımıdır”.

### İnflyasiya riskləri

O bildirib ki, İdarə Heyətinin monetar siyasətə həsr olunmuş son iclasından bəri inflyasiyanın risk balansında əhəmiyyətli dəyişiklik baş verməyib. Sabitləşdirici amillərə antiinflyasion monetar şərait, profisitli tədiyə balansı şəraitində məzənnənin dayanıqlığı və faktiki inflyasiya səviyyəsində möhkəmlənən inflyasiya gözləntiləri aiddir.

“Bununla belə xarici və daxili risk amilləri də qalır. Xarici amillərə qlobal iqtisadi artımın səngiməsinin enerji daşıyıcıları qiymətlərinə mümkün təsirləri, dünya ərzaq bazarlarında bahalaşma meylinin davam etməsi, ticarət tərəfdaşı olan ölkələrdə inflyasiya və məzənnə dəyişkənliyi ilə bağlı qeyri-müəyyənliklər aiddir. Beynəlxalq Valyuta Fondu cari ilin aprelində 2019-cu ilə qlobal iqtisadi artım proqnozunu yanvar hesabatı ilə müqayisədə azalma istiqamətində təshih edib”, - deyə E.Rüstəmov bildirib.

Qeyd edib ki, daxili amillərə isə başlıca olaraq fiskal stimulların istehlak bazarına və monetar sektora təsirləri, ayrı-ayrı kənd təsərrüfatı məhsulları üzrə təklif şokları və kredit aktivliyinin bərpasının kredit ekspansiyasına keçməsi aiddir. Cari ildə və orta müddətli dövrdə fiskal siyasətin sabitliyi davamlı qiymət sabitliyinin və məzənnənin dayanıqlığının əsas şərtlərindən biri olaraq qalır.

### Monetar şərait

E.Rüstəmov əlavə edib ki, Mərkəzi Bankın qiymətləndirmələrinə görə, monetar siyasətin normallaşdırılmasının davam etdirilməsi iqtisadi artımın dəstəklənməsi və makroiqtisadi sabitliyin qorunması arasında balansın təmin edilməsinə müsbət təsir göstərəcək. Pul təklifi və bank sisteminin likvidlik mövqeyi dövlət büdcəsinin profisiti və real sektorun kreditlərə olan tələbatından asılı olaraq formalaşır. Birinci rübdə kredit qoyuluşları 0,3 faiz, o cümlədən ev təsərrüfatlarına kreditlər 2,1 faiz artıb. Kreditlər artım nümayiş etdirsə də bank sisteminin likvidlik mövqeyində iri həcmli struktur profisiti qalır.

“Dollarlaşmanın azalması davam edir. Fiziki şəxslərin əmanətlərinin dollarlaşması 60,5 faizə, o cümlədən rezident fiziki şəxslər üzrə 58,7 faizə enib”, - deyə o əlavə edib.

Mərkəzi Bankın İdarə Heyətinin faiz dəhlizinin parametrləri barədə növbəti qərarının açıqlanması iyunun 7-də ictimaiyyətə təqdim olunacaq.

**AZƏRTAC**

# Dövlət Neft Fondunun vəsaitlərinin həcmi 40 milyard dolları ötüb

## *Üç ayda fondun büdcə gəlirləri 5,9 milyard manat, xərcləri isə 2,6 milyard manat olub*

**20 illiyini qeyd edən Azərbaycan Respublikası Dövlət Neft Fondunun (ARDNF) vəsaitlərinin həcmi fondun tarixində ilk dəfə olaraq 40 milyard ABŞ dollarını keçib.**

Fonddan AZƏRTAC-a bildirilib ki, ümummilli lider Heydər Əliyevin uzaqgörən siyasəti nəticəsində 1999-cu ildə yaradılan, bu il 20 illiyini qeyd edən Dövlət Neft Fondunun aktivləri ARDNF-in tarixində ilk dəfə olaraq 40 milyard dolları keçib. ARDNF-in aktivlərinin artımı Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkədə həyata keçirilən mühüm sosial-iqtisadi islahatların nəticəsində dayanaqlı uzunmüddətli iqtisadi artıma hədəflənmiş siyasətin daha bir nümunəsidir.

Dövlət Neft Fondu bildirir ki, bu ilin yanvar-mart ayları ərzində ARDNF-in büdcə gəlirləri 5 milyard 960,7 milyon manat, büdcə xərcləri isə 2 milyard 640,7 milyon manat təşkil edib. Cari ilin birinci rübü ərzində ARDNF-in neft və qaz sazişlərinin həyata keçirilməsi ilə bağlı gəlirləri 4 milyard 605 milyon manat, o cümlədən mənfəət neftinin və qazın satışından 3 milyard 833,5 milyon manat, bonus ödənişləri 766,4 milyon manat, tranzit gəlirləri 5,1 milyon manat təşkil edib. Ötən rüb ərzində ARDNF-in vəsaitinin idarə olunmasından əldə edilən gəlirlər 1 milyard 355,7 milyon manata bərabər olub.

Hesabat dövrü ərzində Neft Fondunun 2019-cu il büdcəsinin icrası çərçivəsində 2 milyard 615 milyon manat vəsait dövlət büdcəsinə transfert edilib. Qaçqın və məcburi köçkün ailələrinin məskunlaşdırılması və sosial-məişət vəziyyətinin yaxşılaşdırılması üzrə tədbirlərin həyata keçirilməsinə 19,7 milyon manat vəsait ayrılıb. Yanvar-mart ayları ərzində ARDNF-in idarə edilməsi ilə bağlı xərcləri 6 milyon manat təşkil edib.

Valyuta məzənnələrinin dəyişməsindən yaranan fərq ilə bağlı Dövlət Neft Fondunun büdcədənkənar xərci 332 milyon manat olub.

Martın 31-nə ARDNF-in aktivləri 2019-cu ilin əvvəlinə (38 milyard 515,2 milyon dollar) nisbətən 4,56 faiz artaraq 40 milyard 273,3 milyon dollar təşkil edib. Aktivlərin artımı fondun büdcə gəlirləri, o cümlədən vəsaitlərin idarə edilməsindən əldə edilən gəlirlər hesabına baş verib.

**AZƏRTAC**

# Alim müdrikliyi, həkim şəfqəti, ana məhəbbəti

## *(Zərifə Əliyevanın əziz və unudulmaz xatirəsinə)*



**Elə insanlar var ki, onlar həyatda seçdiyi peşəyə bütün qəlbi ilə bağlanır, ömrünü ona həsr edir. Və zaman keçdikcə, onların bu zəhməti böyük bir elmi məktəbin əsasını təşkil edir. Biz fəxr edirik ki, belə insanlar içərisində qadın alim və ziyalılarımız çoxdur. Yüksək intellektual potensiala malik olan bu xanımların hər biri öz sahəsində novator ideyaları, dəyərli araşdırmaları ilə elmdə dərin izlər qoyublar. Və illər sonra bu şəxsiyyətlərin həyatı, elmi fəaliyyəti bir nümunə kimi qalmaqda davam edir. Bu görkəmli simalardan biri də ictimai xadim Zərifə xanım Əliyevadır...**

Dövlətimizin, dövlətçiliyimizin inkişafının bütün mərhələlərində qadınlarımız kişilərlə bərabər fəal iştirak etmiş, öz layiqli töhfələrini vermişlər. Qəhrəmanlıqla dolu keçmişimizə nəzər salsaq, görərik ki, istər torpaqlarımızın müdafiəsində, milli dövlətçiliyin formalaşmasında və idarə olunmasında, istərsə də xalqımıza məxsus dəyərlər sisteminin yaşadılmasında xidmətləri olan qadınlarımıza hər zaman hörmət və ehtiram olub. Xalqımızın qadın fəallığı sahəsində çoxəsrlik tarixə söykənən böyük ənənələri var. Tarixi palitra kifayət qədər zəngindir: massagetlərin məğrur çariçası, Əhəmənilər sülaləsinin əsasını qoymuş əfsanəvi Kirə qalib gəlmiş Tomris, qəhrəman qadın hökmdarlar Nüşabə, Şirvana hücum edən Krım xanını və Osmanlı qoşunlarını məğlub edən Heyran Nisə Bəyim, mərkəzləşdirilmiş Azərbaycan dövlətinin yaradıcısı Fətəli xanın həyat yoldaşı Tuti Bikə, Sara xatun, Dəspinə xatun və Mehinbanu Sultanım xanım özlərini diplomatiya sahəsində göstərmişlər. Mədəni fonda məşhur şairələr pleyadası parlamışdır: orta əsrlər dövründə qadının sevgili seçimində azadlıq hüququnu tərənnüm etmiş Məhsəti Gəncəvi, Şuşada ilk ədəbiyyat məclisi yaratmış Xurşidbanu Natəvan, Heyran xanım, Fatma xanım Kəminə, Şahnigar xanım, Aşıq Pəri... Adını çəkdiyimiz qadın hökmdarlar, döyüşçülər, diplomatlar, şairələr və rəssamlar nadir şəxsiyyətlər idi. Zaman keçdikcə, nə qədər istedadlı və ağıllı, əzəmətli və cəsarətli qadının adı tarixə yazıldı.

XIX əsrin sonu - XX əsrdə Azərbaycanda qadınların ictimai fəallığının çox gözəl nümunələri mövcuddur. O vaxtın qabaqcıl qadınları yeni gender münasibətlərinin kontekstini yaradırdılar. Qadın təhsili ilə bağlı ideyaların gerçəkləşməsi istiqamətində Hənifə xanım Məlikova - Abayeva, Şəfiqə Əfəndizadənin danılmaz müstəsna rolu olmuşdur. Qafqazın müsəlman qadınları xeyriyyə cəmiyyətinin təşkilatçısı Həmidə xanım Cavanşir Məmmədquluzadə Qarabağın Kəhrizli kəndində ilk qız məktəbi açdırmış, toxuculuq emalatxanası yaratmışdı. Böyük xeyriyyəçi Hacı Zeynalabdin Tağıyevin həyat yoldaşı Sona xanım Azərbaycanda incəsənətin, mədəniyyəti inkişafına, qızların təhsil almasına öz əvəzsiz töhfələrini vermişdilər. İlk qadın pedaqoq Mədinə Qiyasbəyli, ilk dramaturq Səkinə Axundzadə, Ağabacı Rzayeva həm Azərbaycanda, həm də bütün Şərqdə peşəkar musiqi təhsilini almış ilk qadın-bəstəkardır. Onun ardınca digər istedadlı xanımlar Ədilə Hüseynzadə, Hökümə Nəcəfova, Şəfiqə Axundova bəstəkarlıq sahəsinə gəliblər. Şərqdə ilk opera yazan bəstəkar qadın Şəfiqə Axundova, ilk xanım opera müğənnisi Şövkət Məmmədova, balet sahəsində ilk qaranquş olan Qəmər Almaszadə, ilk peşəkar rəssam Maral Rəhmanzadə, ilk qadın heykəltəraşı Zivər Məmmədova, ilk həkim-ginekoloq Ədilə Şaxtaxtinskaya ilk kinoaktrisa, ilk xanım neft mühəndisi və ilk xanım kimyaçı akademik İzzət Orucova bu sahələrin hər üçündə ilkə imza atıb. İlk qadın akademik - Validə Tutayuq biologiya sahəsində ilk qadın elmlər doktoru, professordur. 1968-ci ildə Azərbaycan SSR Elmlər Akademiyasının həqiqi üzvü seçilərək böyük ilkə imza atıb. Məhz akademiyanın həqiqi üzvü seçildikdən sonra, nəhayət, Azərbaycan elminin də qadın akademiki olub. Azərbaycanın ilk qadın akademiki seçilən bu xanım sonradan bir çox ilklərə imza atıb. Ən əsası isə ondan sonra qadın elmi kadrlar irəli çəkilib. İlk qadın nazirimiz xarici işlər naziri olan Tahirə Tahirova olub. O, həm də neft sənayesi üzrə ali təhsil alan ilk azərbaycanlı qadın-mütəxəssis idi. Azərbaycanda ilk dəfə qadınlar arasında riyaziyyat üzrə elmlər doktoru adını almaq Tamilla Nəsirovaya nəsib olub. İlk uşaq pediatrı Adilə Namazova beynəlxalq aləmdə tanınan pediatr-kardioloqlardan biridir. İlk qadın şərqşünaslarımızdan biri də professor Aida İmanquliyeva olmuşdur. İlk qadın oftalmoloq Zərifə Əliyeva Azərbaycanda oftalmologiya sahəsində həm də ilk akademik olmuşdur. Onun səyi və təşəbbüsü ilə ölkədə ilk dəfə peşəkar göz patologiyası laboratoriyaları yaradılmışdı.

Zərifə xanım özünün çoxillik fəaliyyəti dövründə neçə-neçə gözə şəfa bəxş etmiş, ən ağır, mürəkkəb əməliyyatlar aparmış, görmə qabiliyyəti zəif olanların, yaxud tamamilə görməyənlərin qaranlıq dünyasını işıqlandırmışdı. Bu işdə ona təkcə biliyi, savadı və səriştəsi deyil, həm də gendən və böyüdüyü ailədən irəli gələn yüksək keyfiyyətlər dəstəkçi olurdu. Doğulub boya-başa çatdığı mühitin onun taleyində böyük rolu olmuşdur. Zərifə xanım Əliyeva atasının - görkəmli dövlət və elm xadimi, pedaqoq-alim, professor Əziz Əliyevin yolunu davam etdirmişdi. Azərbaycan səhiyyə sisteminin inkişafında misilsiz xidmətləri olan Əziz Əliyev yüksək intellekti ilə onu əhatə edənlərin dərin rəğbət və hörmətini qazanmışdı. O, özünün şəxsi nümunəsi ilə övladlarına mübariz olmağı aşılamış, gələcəyə ümid, inam bəsləməyi öyrətmiş, hər zaman hamıya xeyirxah, qayğıkeş münasibətdə olmağı tövsiyə etmişdi. Əziz Əliyev möhkəm iradəyə, böyük təmkinə malik güclü şəxsiyyət idi. Həyatının bütün mürəkkəb mərhələləri əslində onun övladları üçün həyat məktəbi idi. Belə bir ailədə böyüyən Zərifə xanım, təbii ki, səmimiyyəti, zərifliyi, insanlara olan sevgisi ilə fərqlənirdi. Ailəyə məxsus ziyalılıq, əməksevərlik, səmimilik, doğma ocağa, xalqa və Vətənə məhəbbət onun həyatında öz təcəssümünü tapmışdı.

Zərifə xanım, eyni zamanda, müasir, müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu, bütün mənalı ömrünü Vətəninin və xalqının tərəqqisinə həsr etmiş dahi şəxsiyyətin - ümummilli lider Heydər Əliyevin vəfalı ömür-gün yoldaşı, sədaqətli dostu və etibarlı silahdaşı olub. Zərifə xanım, eyni zamanda, qayğıkeş ana idi. İncə təbiətli, bu kövrək qadın öz zərif çiyinlərində dünya şöhrətli siyasətçinin inam və etibarını hər addımda doğrultmuşdu. Ən ağır və təhlükəli vaxtlarda belə Zərifə xanım həyat yoldaşını bir an belə tək qoymamış, onun dayağına çevrilmişdi.

Onun öz ailəsi üçün necə əvəzsiz dəyər kəsb etdiyini həyat yoldaşı - ulu öndər Heydər Əliyev özü də dəfələrlə söyləyib. "Zərifə xanım çox böyük alim olub. Mən hələ onunla həyat quranda o, artıq elm yolunda idi, elmlə məşğul idi. Onun elmi fəaliyyəti məlumdur. O, çox istedadlı, çox xeyirxah, çox sadə insan idi. Mən bu barədə çox danışa bilərəm, ailəmin yaşaması, bu günlərə çatması, övladlarımın tərbiyəsi üçün və həyatımda onun əvəzsiz rolu üçün mən bu gün Zərifə xanımın məzarı qarşısında baş əyirəm. On il keçsə də, onu bir dəqiqə belə unutmuram və unutmayacağam. Mənim övladlarım da bu əhval-ruhiyyədədirlər. Onlar bu əhval-ruhiyyə ilə tərbiyələniblər, formalaşıblar".

Cəmiyyətin həyatında fəal rol oynayan Zərifə xanım ailəsinə son dərəcə bağlı bir qadın, gözəl ana idi. Öz analıq missiyasını sevdiyi peşəsi ilə birləşdirən bu xanımı bir qadın, bir alim və həkim kimi cəmiyyətin inkişafına xidmət edən ailəsindən ayrı düşünmək olmazdı. Zərifə xanım analıq vəzifəsinin öhdəsindən də çox gözəl gəlmişdir. Onun təmkinliliyi, səbirliliyi, ağlı, savadı və digər müsbət xüsusiyyətləri övladları - cənab Prezident İlham Əliyevin və tarix üzrə fəlsəfə doktoru Sevil Əliyevanın da onun yolunu getməsinə köməkçi olmuşdu. Biz, bu ailəyə - ulu öndər Heydər Əliyevə və Zərifə xanım Əliyevaya minnətdarıq ki, qəlblərində daim Azərbaycan sevgisi ilə yaşayan, Vətənimizin qüruru sayılan övladlar yetişdirmişlər. Yüksək keyfiyyətlərin mövcud olduğu belə bir ailədə İlham Əliyev kimi övladın böyüyüb boya-başa çatması, tərbiyə alması hər valideynin, ailənin arzusudur. Bu gün cənab Prezident İlham Əliyevin həyata keçirdiyi uğurlu dövlət siyasəti nəticəsində dövlətimizin dayaqları möhkəmlənir, Azərbaycan daha da çiçəklənib qüdrətli bir ölkəyə çevrilir.

Xeyirxahlığına, yüksək intellektinə, diqqət və qayğısına görə hər bir kəsin hörmət və məhəbbətini qazanmış bu insan, ilk növbədə böyük ziyalı, işıqlı, nurlu şəxsiyyət idi. Zərifə xanım Əliyeva Azərbaycanın səhiyyə sahəsində silinməz iz buraxmışdır. O, Azərbaycan tibb elminin inkişafına böyük töhfə verən akademik olub. Onun həyat fəlsəfəsi, mənəvi dünyası, oftalmologiya elminin inkişafındakı xidmətləri zəngin və çoxşaxəlidir. Azərbaycan oftalmologiyasını dünya səviyyəsində tanıdan Zərifə xanım Əliyeva təbabətdə öz dəstxətti olan novator bir alim idi. Zərifə xanım haqlı olaraq hesab edirdi ki, həkimin peşə mövqeyi onun xəstəyə münasibətini müəyyənləşdirən başlıca amildir: "Yalnız o şəxs əsl həkimdir ki, xəstənin ağrılarını məhz özünün ağrıları hesab edir. Belə ki həkim üçün hər dəfə xəstəni qəbul etmək, hər dəfə xəstəliyə düçar olmuş insanla söhbət etmək həm xəstə qarşısında, həm də cəmiyyət qarşısında, ən başlıcası isə öz vicdanı qarşısında əxlaqi məsuliyyət deməkdir".

Zərifə xanım Əliyevanın elmi-tədqiqatlara olan sonsuz marağı onu Oftalmologiya Elmi-Tədqiqat İnstitutuna gətirib çıxarmışdı. O, bu ixtisası seçərkən ölkə əhalisinin bu sahəyə böyük ehtiyacı olduğunu düşünmüş və Vətənə bu istiqamətdə daha çox xeyir verəcəyini fikirləşərək bu addımı atmışdı. Həmin illərdə Azərbaycanda gözü zədələyən, hətta tam korluğa səbəb olan traxoma göz xəstəliyinə qarşı təsirli müalicə üsulları yox idi. Bu xəstəliklə mübarizə təkcə oftalmologiya elmi üçün deyil, bütövlükdə respublikanın səhiyyəsi üçün mühüm əhəmiyyət daşıyırdı. Akademik Zərifə Əliyevanın alim kimi qazandığı böyük uğurlar Azərbaycan tibb elminin tarixində ayrıca bir mərhələ təşkil edir. Zərifə xanım Əliyeva elmi-pedaqoji fəaliyyətində təkcə elmi-tədqiqat işləri aparmaqla kifayətlənməmiş, eyni zamanda, yüksəkixtisaslı gənc alim kadrların yetişdirilməsinə və oftalmoloq həkimlərin ixtisaslarının artırılması işinə də xüsusi diqqət yetirmişdir. Onun birbaşa rəhbərliyi ilə gənc alimlərin və həkim oftalmoloqların böyük bir nəsli yetişmişdir. Zərifə xanım tələbələrinə zəngin həyat təcrübəsi öyrətmiş, onlara xüsusi diqqət və qayğı ilə yanaşmışdır. Bu gün onun yetişdirdiyi kadrlar insanlara sağlamlıq bəxş edir. Zərifə xanımın həkim kimi fədakarlığı, yüksək vətəndaşlıq məsuliyyəti, səmimiliyi və qayğıkeşliyi, insanlara və onların problemlərinə göstərdiyi qayğı, fəal həyat mövqeyi ona həmkarlarının, yetirmələrinin və xəstələrinin dərin hörmətini qazandırmışdır. Böyük xidmətlərinə, çoxillik elmi-tədqiqat işlərinə görə professor Zərifə Əliyeva 1983-cü ildə Azərbaycan Respublikası Elmlər Akademiyasının akademiki seçilmişdir. Zərifə xanım bir sıra orden və medallara layiq görülmüş, Azərbaycanın Əməkdar elm xadimi fəxri adını almışdır.

Təsadüfi deyil ki, dünya oftalmologiya elminin tanınmış simaları Zərifə xanım haqqında tarixi sözlər demişlər. Məşhur oftalmoloq, akademik A.Nesterov demişdir: "Zərifə Əliyeva çox ağıllı insan və böyük professional idi. Mən onu öz sahəsinin məşhur alimi hesab edirəm. Oftalmologiyada o, bir nömrəli idi". Qeyd etmək yerinə düşər ki, Zərifə xanım Azərbaycanda oftalmologiya sahəsində ilk akademik qadın olmuşdur. Bütün bunlara yanaşı, Zərifə xanım uzun müddət Sülhü Müdafiə Komitəsinin üzvü, Azərbaycan "Bilik" Cəmiyyətinin üzvü, Oftalmoloqların Elmi Cəmiyyətinin Rəyasət Heyətinin üzvü, "Oftalmologiya xəbərləri" jurnalının redaksiya heyətinin üzvü olmuşdur. Əlbəttə, bütün bunlar çoxlu enerji tələb edirdi, lakin Zərifə xanım təbiəti üçün adi hal idi. Zərifə xanım, eyni zamanda, ədəbiyyatı, musiqini də çox sevirdi. Onun ədəbiyyat sahəsindəki bilikləri, incəsənət, xüsusilə təsviri incəsənət, rəsm əsərləri haqqında mülahizələri adamı heyrətləndirməyə bilməzdi.

Zərifə xanım bir həkim, alim və vətəndaş kimi bütün ömrü boyu xalqı üçün çalışmışdı və onun bir həkim kimi səhiyyənin inkişafında oynadığı rol, insanların sağlamlığı yolunda gördüyü işlər, o cümlədən bir qadın və ana kimi ideal olması və digər onun haqqındakı əbədi xatirələr xalqın yaddaşında daim yaşayır. Bu gün onun müqəddəs ailə çırağını iki gözəl övladı, nəvələri yandırırlar. Xalqa xidmət amalını bir ailə ənənəsi kimi yaşadan Prezident İlham Əliyev Zərifə xanımı dərin ehtiramla xatırlayaraq demişdir: **"Onun bütün fəaliyyəti, gördüyü bütün işlər insan amilinə dayanırdı. Çünki o həm peşəkar həkim, eyni zamanda, çox xeyirxah insan idi. Böyük lider, ulu öndər Heydər Əliyevin ömür-gün yoldaşı olan Zərifə xanım bütün işlərdə ona dayaq olur, onu dəstəkləyirdi. Hər bir insan üçün valideynləri əziz və müqəddəsdir. Mən çox xoşbəxtəm ki, Zərifə xanım kimi anam olmuşdur".**

Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyeva Zərifə xanımın ənənələrini davam etdirir. Yüksək dəyərləri öz şəxsiyyətində birləşdirmiş Mehriban xanım milli-mənəvi sərvətlərimizin qoruyucusudur. O, Azərbaycanda təhsilin, səhiyyənin, mədəniyyətin və digər sahələrin inkişafı üçün əlindən gələni edir. Özünün ictimai fəallığı və şəxsi örnəyi ilə müasir Azərbaycan qadınını bütün dünyada ləyaqətlə təmsil edir, Azərbaycan ailəsinin yüksək mənəvi dəyərlərə söykəndiyini və ümumbəşəri ideallar əsasında yaşadığını təcəssüm etdirir.

Zərifə xanım Əliyeva adına Milli Oftalmologiya Mərkəzi, Naxçıvan şəhər poliklinikası, Akademik Zərifə Əliyeva adına Elmi-Tədqiqat Göz Xəstəlikləri İnstitutu, adına küçələr, xəstəxanalar, körpələr evi, təlim-təhsil ocaqları və s. onun adının əbədiləşdirilməsinin layiqli göstəricisi, ona qoyulan hörmətin, bəslənilən rəğbətin, göstərilən ehtiramın nəticəsidir. Bakıda müasir Oftalmologiya Mərkəzinin yaradılması Zərifə xanımın çoxdankı arzularından idi. Oftalmologiya Mərkəzi görmə qabiliyyətində problem olan hər kəsin pənah gətirdiyi yerdir. Klinikanın fəaliyyəti dövründə respublikamızın şəhər və rayonlarından gələn yüz minlərlə xəstəyə yüksəksəviyyəli xidmət göstərilmişdir. O cümlədən, yaşadığı müddətdə respublikamızın ən yüksəkkeyfiyyətli oftalmoloji avadanlıqlarla təchiz edilməsində də Zərifə xanımın misilsiz xidmətləri olmuşdur.

Zərifə Əliyevanın adını əbədiləşdirmək, bu görkəmli qadının xalqımız yolundakı fədakarlığını qiymətləndirmək naminə Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi də öz növbəsində mütəmadi tədbirlər, müsabiqələr, maarifləndirici kampaniyalar həyata keçirir. Müsabiqələrin keçirilməsində məqsəd gənc dostlarımızın, məktəblilərimizin belə ziyalıların, alim və ictimai xadimlərin həyat və yaradıcılığını öyrənməsi, onlardan nümunə götürülməsidir.

Zərifə xanımın fitri istedada malik novator alim, pak və nadir insan kimi yaşadığı dərin mənalı ömrü, keçdiyi şərəfli həyat yolu hər bir Azərbaycan vətəndaşı, hər bir alim və həkim üçün həyat və mənəviyyat dərsi, kamillik və müdriklik məktəbidir. Tibb aləmində bir çox yeniliklərə imza atmış, Azərbaycan oftalmologiya elmini bütün dünyada tanıdan, yüksək intellekt sahibi, yorulmaz alim, akademik, tibb elmləri doktoru, professor Zərifə xanım Əliyevanın elmdə açdığı yol ildən-ilə inkişaf edir, onun yazıb-yaratdığı monumental əsərləri, qoyub-getdiyi elmi nailiyyətləri, pedaqoqluq səriştəsi, mədəni irsi daim araşdırılır, öyrənilir, neçə-neçə tədqiqat əsərlərinin mövzusuna çevrilir. Onun zəngin elmi irsi, oftalmologiyanın müxtəlif sahələri üzrə apardığı tədqiqatlar, qazandığı nailiyyətlər, yaratdığı fundamental əsərlər Azərbaycan tibb elminin parlaq səhifəsidir. İnsanlara bitib-tükənməyən sevgi, məhəbbət dolu geniş ürəyə sahib olan, gözlərə işıq, nur bəxş edən, Vətən təəssübünü bütün doğrulardan üstün tutmağı bacaran, özünün fitri istedadı ilə elmin, insanlığın ən yüksək zirvəsinə ucalan akademik Zərifə xanım Əliyeva bu xüsusiyyətləri ilə həm müasir gənclərə, həm də gələcək nəsillərə nümunə və örnəkdir.

**İnsan Yaradan tərəfindən maddi və mənəvi sınaqlara məruz qalır. Hansı insan bu sınaqlardan şərəflə çıxırsa, bax, əsl insan da odur. Belə şəxslərə Allah hər iki dünyada əbədi səadət bəxş edir. Zərifə Əliyeva da həyatın bütün sınaqlarından şərəflə çıxmış məhz belə bir insan idi. Son dərəcə vətənpərvər, ləyaqətli şəxsiyyət, ailə səadətinin qoruyucusu, fədakar ana, ən əsası isə xeyirxah insan. Bu gün Zərifə Əliyeva Azərbaycan xalqının ürəyində məhz belə yaşayır.**

**Hicran HÜSEYNOVA,**
**Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri, siyasi elmlər doktoru, professor.**

## “Xəzər-Lada” ASC-nin Mənfəət və Zərərlərin Hesabatı

**2018-ci il**

| N-li | Göstəricilər (Səhmdarların ümumi yığıncağında təsdiq olunmuşdur) | Məbləğ (manatla) |
|---|---|---|
| 1 | Hesabat dövrünün gəlirləri (ƏDV-siz və aksizsiz) | |
| 1.1 | Malların (işlərin, xidmətlərin) təqdim edilməsindən gəlir | 14 987 380.0 |
| 1.2 | İnvestisiya gəlirləri | 0 |
| 1.3 | Sair gəlirlər | 1 458 173.0 |
| | **Cəmi gəlirlər** | **16 445 553.0** |
| 2 | Hesabat dövründə gəlirlərin əldə edilməsi ilə bağlı xərclər | |
| 2.1 | Malların dəyəri | 14 341 964.0 |
| 2.2 | Borca görə ödənilmiş faizlər | 191 550.0 |
| 2.3 | Amortizasiya xərcləri | 535707.0 |
| 2.4 | İşçi heyəti üzrə xərclər | 536 927.0 |
| 2.5 | Sair xərclər | 568 605.0 |
| | **Cəmi xərclər** | **16 174 753.0** |
| 3 | Maliyyə mənfəəti (zərəri) | |
| 3.1 | Mənfəətin nizamnamə kapitalına yönəldilən hissəsi | |
| 3.2 | Vergi qoyulmadan əvvəl mənfəət (zərər) | 270 800.0 |
| 3.3 | Mənfəət vergisi | 54 160.0 |
| 3.4 | Hesabat dövrünə xalis mənfəət (zərər) | 216 640.0 |
| 3.5 | Xalis mənfəətdən istifadə | |
| 3.6 | AYIRMALAR: İlin axırında, səhmdarların ümumi iclasında | 216 640.0 |
| | YIĞIM FONDUNA 20 faiz | 43 328.0 |
| | İSTEHLAK FONDUNA 50 faiz | 108 320.0 |
| | DİVİDENDLƏRƏ 30 faiz | 64 992.0 |

| 4 | BÜDCƏYƏ VƏ BÜDCƏDƏNKƏNAR ÖDƏNİŞLƏR | Hesablanmışdır | Ödənilmişdir |
|---|---|---|---|
| 4.1 | ƏMLAK VERGİSİ — İlin axırında | 23804 | 23804 |
| 4.2 | MƏNFƏƏTDƏN (GƏLİRDƏN) VERGİ- İlin axırında | 54160 | 54160 |
| 4.3 | TORPAQ VERGİSİ | 5963 | 5963 |
| 4.5 | ÖDƏMƏ MƏNBƏYİNDƏ TUTULAN VERGİ | 11040 | 11040 |
| 4.6 | ƏLAVƏ DƏYƏR VERGİSİ (ƏDV) | 2960200 | 2960200 |
| 4.7 | AKSİZLƏR | 406720 | 406720 |
| 4.8 | İDXAL GÖMRÜK RÜSUMLARI | 129755 | 129755 |
| 4.9 | GƏLİR (ƏMƏKHAQQINDA) VERGİSİ | 48879 | 48879 |
| 4.10 | Nəqliyyat vergisi | | |
| 4.11 | Sair vergilər | 0 | 0 |
| 4.12 | İqtisadi sanksiyalar | | |
| | **Büdcəyə ödənişlərin cəmi** | **3640521** | **3640521** |
| | **Büdcədənkənar ödənişlər** | **0** | **0** |
| | **Ödənişlərin cəmi** | **3640521** | **3640521** |

## Mühasibat Balansı

**2018-ci il**
**(manatla)**

| Bölümün, maddənin N-si | Göstəricilər | Qeydlər | 2017 | 2018 |
|---|---|---|---|---|
| | **AKTİVLƏR** | | | |
| **1** | **Uzunmüddətli aktivlər** | | | |
| 10 | Qeyri-maddi aktivlər | | | |
| 11 | Torpaq, tikili və avadanlıqlar | 3 | 4 819 195 | 4543078.0 |
| 12 | Daşınmaz əmlaka investisiyalar | | | |
| 13 | Bioloji aktivlər | | | |
| 14 | Təbii sərvətlər | | | |
| 15 | İştirak payı metodu ilə uçota alınan investisiyalar | | | |
| 16 | Təxirə salınmış vergi aktivləri | | | |
| 17 | Uzunmüddətli debitor borcları | | | |
| 18 | Sair uzunmüddətli maliyyə aktivləri | | | |
| 19 | Sair uzunmüddətli aktivləri | | | |
| | **Cəmi uzunmüddətli aktivləri** | | **4 819 195** | **4 543078.0** |
| **2** | **Qısamüddətli aktivlər** | | | |
| 20 | Ehtiyatlar | 4 | 1 589 769 | 1 993 647.0 |
| 21 | Qısamüddətli debitor borcları | 5 | 3 745 909 | 3 077 695.0 |
| 22 | Pul vəsaitləri və onların ekvivalentləri | 6 | 4 686 710 | 428162.0 |
| 23 | Sair qısamüddətli maliyyə aktivləri | | | |
| 24 | Sair qısamüddətli aktivlər | | | |
| | **Cəmi qısamüddətli aktivlər** | | **8 022 388** | **5 499504.0** |
| | **Cəmi aktivlər** | | **12 841 583** | **10 042 582.0** |
| | **KAPİTAL VƏ ÖHDƏLİKLƏR** | | | |
| **3** | **Kapital** | | | |
| 30 | Ödənilmiş nominal (nizamnamə) kapitalı | 7 | 445 800 | 445 800.0 |
| 31 | Emissiya gəliri | | | |
| 32 | Geri alınmış kapital (səhmlər) | | | |
| 33 | Kapital ehtiyatları | 8 | 8439.142.0 | 8 452 542. 0 |
| 34 | Bölüşdürülməmiş mənfəət (ödənilməmiş zərər) | 9 | 200 000.0 | 216 640.0 |
| 35 | Əvvəlki illərdə bölüşdürülməmiş mənfəət | 10 | 301 000.0 | 427 600.0 |
| | **Cəmi kapital** | | **9 385 942** | **9 542 582.0** |
| **4** | **Uzunmüddətli öhdəliklər** | | | |
| 40 | Uzunmüddətli faiz xərcləri yaradan öhdəliklər | | | |
| 41 | Uzunmüddətli qiymətləndirilmiş öhdəliklər | | | |
| 42 | Təxirə salınmış vergi öhdəlikləri | | | |
| 43 | Uzunmüddətli kreditor borcları | | | |
| 44 | Sair uzunmüddətli öhdəliklər | | | |
| | **Cəmi uzunmüddətli öhdəliklər** | | **0** | **0** |
| **5** | **Qısamüddətli öhdəliklər** | | | |
| 50 | Qısamüddətli faiz xərcləri yaradan öhdəliklər | 11 | 1 200 000 | 500000.0 |
| 51 | Qısamüddətli qiymətləndirilmiş öhdəliklər | | 1 899 023 | 00 |
| 52 | Vergi və sair məcburi ödənişlər üzrə öhdəliklər | | | |
| 53 | Qısamüddətli kreditor borcları | 12 | 11 618 | 00 |
| 54 | Sair qısamüddətli öhdəliklər | | 345 000 | 00 |
| | **Cəmi qısamüddətli öhdəliklər** | | **3 455 641** | **500 000.0** |
| | **Cəmi öhdəliklər** | | **6 445 641** | **500 000.0** |
| | **Cəmi kapital və öhdəliklər** | | **12 841 583** | **10 042582.0** |

# MÜSTƏQİL AUDİTORUN RƏYİ NM-119

## “XƏZƏR-LADA” AÇIQ SƏHMDAR CƏMİYYƏTİNİN İDARƏ HEYƏTİNƏ

Mən, Azərbaycan Respublikası ərazisində auditor xidməti göstərmək üçün Respublika Auditorlar Palatasının 31 yanvar 2014-cü il tarixli AT/111 saylı “icazə”yə əsasən fəaliyyət göstərən “AUDİT GRUP” MMC-nin, direktoru, eyni zamanda Azərbaycan Respublikası Auditorlar Palatasının 08.11.2018-ci il tarixli SA/107 saylı “icazə”yə əsasən auditor fəaliyyəti ilə məşğul olan, (ABŞ-da) Beynəlxalq Daxili Auditorlar İnstitutunun fərdi üzvlüyünə dair 30.05.2001-ci il tarixli 1071542 saylı müvafiq sertifikatın sahibi, Beynəlxalq Mühasibat uçotunun standartlaşdırılmasma dair Azərbaycan Bank Tədris Mərkəzinin 24.12.2001-ci il tarixli sertifikatına əsasən “Bank Auditi” adı almış Məmmədov Natiq Həmid oğlu 25 dekabr 2018-ci il tarixli AG-00119 saylı müqaviləyə əsasən, “Xəzər-Lada” Açıq Səhmdar Cəmiyyətinin 01.01.2018-ci il tarixdən 31.12.2018-ci il tarixinə təqdim edilən hesabatı və həmin tarixdə tamamlanan il üzrə mənfəət və zərər hesabatı, kapitalda dəyişikliklər hesabatı və pul vəsaitlərinin hərəkəti hesabatından, eləcə də əsas uçot prinsiplərinin xülasəsindən və digər izahedici qeydlərdən ibarət olan maliyyə hesabatlarının audit yoxlamasını apardım.

Audit: 01 fevral 2019-cu il tarixdə başlayıb
28 fevral 2019-cu il tarixdə başa çatdı

**Maliyyə hesabatlarının hazırlanması üzrə rəhbərliyin məsuliyyəti**

**1.** Hazırkı maliyyə hesabatlarının Milli Mühasibat Uçotu Standartlarına uyğun olaraq hazırlanmasına və düzgün təqdim edilməsinə görə rəhbərlik məsuliyyət daşıyır. Bu məsuliyyətə aşağıdakılar daxildir: Fırıldaqçılıq və ya səhvlər nəticəsində əhəmiyyətli təhriflərin olmadığı; maliyyə hesabatlarının hazırlanması və düzgün təqdim edilməsi üçün müvafiq daxili nəzarət sisteminin yaradılması, tətbiq edilməsi və davam etdirilməsi; müvafiq uçot siyasətinin seçilməsi və tətbiq edilməsi; şəraitdən asılı olaraq məqbul uçot təxminlərinin irəli sürülməsi.

**Auditorun məsuliyyəti**

**2.** Mənim məsuliyyətim apardığım audit yoxlamasına əsasən maliyyə hesabatlarına dair rəy bildirməkdən ibarətdir. Mən audit yoxlamamı Beynəlxalq Audit Standartları əsasında apardım. Həmin Standartların tələblərinə görə, mən etik tələblərə əməl etməli və auditi elə şəkildə planlaşdırmalı və aparmalıyam ki, maliyyə hesabatlarında əhəmiyyətli təhriflərin mövcud olmamasına kifayət qədər əmin olam.

**3.** Audit yoxlamasına maliyyə hesabatlarındakı məbləğlər və açıqlamalara dair auditor sübutu əldə etmək üçün prosedurların yerinə yetirilməsi daxildir. Seçilmiş prosedurlar auditorun mülahizələrindən, eləcə də fırıldaqçılıq və ya səhvlər nəticəsində maliyyə hesabatlarının əhəmiyyətli dərəcədə təhrif edilməsi risklərinin qiymətləndirilməsindən asılıdır. Həmin riskləri qiymətləndirərkən auditor qurumunun daxili nəzarət sisteminin effektivliyinə dair rəy bildirmək üçün deyil, şəraitə görə müvafiq audit prosedurlarının işlənib hazırlanması məqsədilə qurum tərəfindən maliyyə hesabatlarının hazırlanması və düzgün təqdim edilməsi üçün müvafiq daxili nəzarət sistemini nəzərdən keçirir. Bundan əlavə, audit yoxlamasına mövcud uçot siyasətinin uyğunluğunun və rəhbərliyin uçot təxminlərinin əsaslandırılmasının qiymətləndirilməsi, eləcə də maliyyə hesabatlarının ümumi təqdimatının dəyərləndirilməsi daxildir.

Mən hesab edirəm ki, əldə etdiyim auditor sübutları rəyimi bildirmək üçün kifayət qədər əsas verir.

**4.** Mənim fikrimcə, əldə edilən bu maliyyə hesabatları 31 dekabr 2018-ci il tarixə bütün əhəmiyyətli aspektlər baxımından “Xəzər-Lada” Açıq Səhmdar Cəmiyyətinin fəaliyyətinin nəticələrini və maliyyə vəziyyətini Maliyyə Hesabatlarının Milli Mühasibat Uçotu Standartlarına uyğun olaraq düzgün əks etdirir.

**5.** Rəy 28 fevral 2019-cu il tarixdə eyni qüvvəyə malik iki nüsxədə tərtib edilmişdir. Bunlardan biri sifarişçidə, ikincisi isə auditor təşkilatında saxlanılır.

**N.H.MƏMMƏDOV,**
**“AUDİT GRUP” MMC-nin direktoru-auditor.**
**28 fevral 2019-cu il.**

## BİLDİRİŞ

“Azərpambıq Aqrar Sənaye Kompleksi” MMC-yə 5 ədəd personal kompüter və 20 ədəd notebookun kotirovka sorğusu əsasında satınalınmasına dair 20.03.2019-cu il tarixli “Respublika” qəzetində və 19.03.2019-cu il tarixli ask.gov.az internet saytında dərc edilmiş kotirovka sorğusu prosesində ən aşağı qiymət təklifi edən Azərbaycan, Bakı şəhəri, S.Rüstəm 3/11 ünvanında yerləşən “STRİX” MMC şirkəti qalib gəlmişdir. Həmin müəssisə ilə 23.04.2019-cu il tarixdə 33146.20 manat məbləğində müqavilə imzalanmışdır.

## Bildiriş

Azərbaycan Respublikasının Məcburi Köçkünlərin Sosial İnkişaf Fondu tərəfindən “MKSİF-in dəftərxana ləvazimatları, təsərrüfat malları, yuyucu maddələr, hesablama texnikası və avadanlıqlarına (sürətçıxaran aparatlar, printerlər) göstərilən texniki xidmət haqqının” satınalınması məqsədilə keçirilmiş kotirovka prosedurunun qalibi Fiziki şəxs Tural Ədalət oğlu Əliyev elan edilmiş və həmin Fiziki şəxs ilə 25 aprel 2019-cu il tarixdə müvafiq satınalma müqaviləsi bağlanmışdır.

## Samux Rayon İcra Hakimiyyəti Samux rayonunda ödənişli ictimai işlərə cəlb edilən işçilərə xüsusi geyim və ləvazimatların satınalınması barədə

## TƏKLİFLƏR SORĞUSU ELAN EDİR

Təkliflər 07.05.2019-cu il , saat 18:00-dək qəbul olunur.

Təklif sənədləri 08.05.2019-cu il, saat 11:00-da açılacaqdır.

**Əlaqələndirici şəxs:** Tahir Qarayev
**Tel.:** 022 275-10-06
**Ünvan:** Samux şəhəri, Heydər Əliyev pr. 70.

## “Bakı Tikinti Konstruksiyaları” ASC səhmdarlarının nəzərinə!

“Bakı Tikinti Konstruksiyaları” Açıq Səhmdar Cəmiyyəti səhmdarlarının illik ümumi Yığıncağı 01 iyun 2019-cu il, saat 11-00-da Bakı şəhəri, Dərnəgül qəsəbəsi, 2096-cı məhəl., 507 küç., ünvanda keçiriləcəkdir.

**Yığıncağın gündəliyi:**

**1.** “Bakı Tikinti Konstruksiyaları” ASC-nin 2018-ci ilin yekunları ilə bağlı maliyyə-təsərrüfat fəaliyyətinin hesabatı və cəmiyyətin 2018-ci il üzrə illik hesabatının təsdiq edilməsi.

**2.** “Bakı Tikinti Konstruksiyaları” Açıq Səhmdar Cəmiyyətinin “Bakı Tikinti Konstruksiyaları” Qapalı Səhmdar Cəmiyyətinə çevrilməsi.

**3.** Cəmiyyətin Nizamnaməsinin yeni redaksiyada təsdiq edilməsi.

**4.** Digər məsələlər.

Səhmdarlar gündəlikdəki məsələlərlə Bakı şəhəri, Dərnəgül qəsəbəsi, 2096-cı məhəllə, 507 küçə ünvanda ASC-nin inzibati binasında tanış ola bilərlər. Əlaqə tel.,+994(12) 566 67 61, +994(50) 7111289.

## Bildiriş

“Xalq qəzeti”nin 08 fevral 2019-cu il və 21 fevral 2019-cu il tarixli nömrələrində dərc olunmuş elana əsasən Yasamal Rayon Mənzil-Kommunal Təsərrüfatı Birliyi Lot-1 Mənzil fondunun əsaslı təmiri, LOT-7 Məhəllədaxili yollara asfalt örtüyün salınması üçün açıq tender zərflərin açılış vaxtının müddəti uzadılaraq, 31 may 2019-cu il tarixdə saat 16:00-da açılacaqdır.

**Tender Komissiyası.**

TƏKRAR

## AMEA İNFORMASİYA TEXNOLOGİYALARI İNSTİTUTU

## AÇIQ TENDERƏ DƏVƏT EDİR

**Tender 5 lot üzrə keçirilir:**

**Lot 1** - Dəftərxana və təsərrüfat mallarının alınması;

**Lot 2** - Avadanlıqların təmir-quraşdırma işləri, kompüter və telekommunikasiya avadanlıqlarının ehtiyat hissələri və qovşaqlarının alınması;

**Lot 3** - Qeyri-maddi aktivlərin alınması;

**Lot 4** - ERP sisteminə texniki dəstək xidməti;

**Lot 5** - Çap avadanlıqları üçün məsrəf və digər təsərrüfat mallarının alınması.

Tender iştirakçılarına təklif edilir ki, öz tender təkliflərini möhürlənmiş, imzalanmış şəkildə ikiqat zərflərdə yazılı surətdə təqdim etsinlər.

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlarına malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyənlər lotlar üzrə aşağıdakı məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş əsas şərtlər toplusunu Bakı şəhəri, B. Vahabzadə küçəsi 9 A (Əlaqələndirici şəxs: Leyla Quluyeva, telefon: (+994 55 241 50 71) ünvanından ala bilərlər.

**İştirak haqqı:**
**Lot 1 - 100,00 manat**
**Lot 2 - 100,00 manat**
**Lot 3 - 100,00 manat**
**Lot 4 - 20,00 manat**
**Lot 5 - 80,00 manat**
*Hesab: AZ77CTRE00000000000004138404*
*VÖEN: 1300308241*
*BSK: 7*
*BTK: 142340*
*Bank: Dövlət Xəzinədarlıq Agentliyi*
*Kodu: 210005*
*VÖEN: 1401555071*
*M/H: AZ41NABZ01360100000000003944*
*S.W.İ.F.T: CTREAZ22*
**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

*1. Tenderdə iştirak etmək üçün yazılı müraciət*
*2. Tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi*
*3. Tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır)*
*4. Tender təklifi dəyərinin 1 %-i həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır)*
*5. Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış*
*6. İddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti*
*7. İddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı*
*8. İddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri*
*9. İddiaçıların müvafiq mallar üzrə mənşə və uyğunluq sertifikatları*
*10. Digər sənədlər.*

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildə olan tender təklifləri Azərbaycan dilinə tərcümə olunmalıdır).

Tender proseduru “Dövlət satınalmaları haqqında” qanuna uyğun keçiriləcəkdir.

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank təminatı istisna olmaqla) 22 may 2019-cu il, saat 17:00-a qədər, tender təklifi və bank təminatını isə möhürlənmiş ikiqat zərfdə 31 may 2019-cu il, saat 17:00-a qədər Bakı şəhəri, B. Vahabzadə küçəsi 9A ünvanına təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır.

İddiaçıların təklifləri 3 iyun 2019-cu il, saat 11:00-da Bakı şəhəri, B. Vahabzadə küçəsi 9A ünvanında açılacaqdır.

İddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

**TENDER KOMİSSİYASI.**

# Heydər Əliyev Mərkəzinin parkında: DJ “S-BROTHER-S”, “Rast” qrupu və musiqili atəşfəşanlıq

